AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL NAZİRİ

# ƏMR

№ F-424

Bakı şəhəri "11" 09 2020 il

**"Xüsusi karantin rejimi dövründə ali və orta ixtisas təhsili müəssisələrində tədris prosesinin təşkilinə dair Təlimat"ın təsdiq edilməsi barədə**

Ali və orta ixtisas təhsili müəssisələrində təhsil prosesinin təşkilini və tənzimlənməsini təmin etmək məqsədilə "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkili barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 avqust tarixli 312 nömrəli və "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti Qaydaları"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 sentyabr tarixli 332 nömrəli Qərarını və "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 13.5-ci bəndini rəhbər tutaraq

**əmr edirəm:**

1. "Xüsusi karantin rejimi dövründə ali və orta ixtisas təhsili müəssisələrində tədris prosesinin təşkilinə dair Təlimat" təsdiq edilsin (əlavə olunur).

2. Ali və orta ixtisas təhsili müəssisələrinin rəhbərlərinə tapşırılsın:

2.1. ixtisasın xüsusiyyətindən asılı olaraq II və yuxarı tədris ili tələbələri üçün əyanı tədrisi nəzərdə tutulmuş ixtisasların siyahısını 5 iş günü müddətində;

2.2. tədris distant formada təşkil olunan zaman təhsilalanların cari və aralıq qiymətləndirilməsinin aparılması qaydasını 15 gün müddətində razılaşdırılması üçün Azərbaycan Respublikasının Təhsil Nazirliyinə təqdim etsinlər;

2.3. bu əmrin 2.1-ci və 2.2-ci bəndlərində nəzərdə tutulmuş siyahı və qaydanın 2020-ci il oktyabrın 1-dək təsdiq olunmasını təmin etsinlər.

3. Azərbaycan Respublikası Təhsil Nazirliyi Aparatının Elm, ali və orta ixtisas təhsili şöbəsinə (Y.Piriyev) və Nazirliyin Təhsil sisteminin informasiyalaşdırılması idarəsinə (V.Xanlarov) tapşırılsın ki, bu əmrin icrasından irəli gələn məsələlərin həllini təmin etsinlər.

4. Azərbaycan Respublikası Təhsil Nazirliyi Aparatının Vətəndaş müraciətləri ilə iş və kommunikasiya şöbəsinə (S.Hacıyeva) tapşırılsın ki, bu əmrin surətinin müvafiq ali və orta ixtisas təhsili müəssisələrinə çatdırılmasını təmin etsin.

5. Əmrin icrasına nəzarət nazir müavini İdris İsayevə həvalə olunsun.

---

**Emin Əmrullayev**

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
VƏTƏNDAŞLARIN MÜRACİƏTLƏRİ İLƏ İŞ VƏ KOMMUNİKASİYA ŞÖBƏSİ

ƏSLİ İLƏ DÜZDÜR

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
VƏTƏNDAŞLARIN MÜRACİƏTLƏRİ İLƏ İŞ VƏ KOMMUNİKASİYA ŞÖBƏSİ
ƏSLİ İLƏ DÜZDÜR

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin 2020-ci il 11. sent tarixli F-424 nömrəli əmri ilə təsdiq edilmişdir.*

## Xüsusi karantin rejimi dövründə ali və orta ixtisas təhsili müəssisələrində tədris prosesinin təşkilinə dair Təlimat

### 1. Ümumi müddəalar

Bu Təlimat Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkili barədə" 2020-ci il 29 avqust tarixli 312 nömrəli və "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti Qaydaları"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 sentyabr tarixli 332 nömrəli qərarlarına uyğun olaraq hazırlanmışdır və xüsusi karantin rejimi dövründə ali və orta ixtisas təhsili müəssisələrində (xüsusi təyinatlı ali və orta ixtisas təhsili müəssisələri istisna olmaqla) tədris prosesinin təşkilinə dair əlavə tələbləri tənzimləyir.

### 2. Əyani və qiyabi təhsilalma formalarında tədris prosesinin təşkili

2.1. Orta ixtisas və ali təhsil müəssisələrində (bakalavriat və magistratura səviyyələrində) tədris prosesi tələbə sayından, tədris auditoriya fondu və tutumundan asılı olaraq üç növbədə təşkil edilə bilər. Bu zaman üçüncü növbə əsasən magistratura səviyyəsində və ya xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə (idman zallarında, tədris-istehsalat emalatxanalarda sosial məsafənin gözlənilməsi çətinlik yaratdıqda) təhsil alanlar üçün nəzərdə tutulur.

2.2. 2020/2021-ci tədris ilində ali və orta ixtisas təhsili müəssisələrində əyani təhsilalma formasında tədris prosesinin başlanması müddəti "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkili barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 avqust tarixli 312 nömrəli Qərarı ilə tənzimlənir. Ali və orta ixtisas təhsili müəssisələrində qiyabi təhsilalma formasında tədris prosesinin başlanması müddəti təhsil müəssisəsi tərəfindən müəyyən olunur.

2.3. Əyani və qiyabi formada təhsilalanlar üçün akademik saatın müddəti 45 dəqiqədir. Bütün növ dərslər üçün 2 akademik saat müəyyənləşdirilir. Akademik

saatlararası fasilə 5 dəqiqədən az olmamalıdır. Akademik saatlararası fasilə olmadıqda dərsin müddəti 80 dəqiqədir.

2.4. Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə razılaşdırılmaqla cari ildə qəbul olunmuş tələbələrə bəzi nəzəri fənlər distant (məsafədən) formada tədris oluna bilər. II və yuxarı tədris ili tələbələri üçün əyanı tədrisi nəzərdə tutulmuş və siyahısı Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə razılaşdırılmış müəyyən ixtisaslar üzrə bir sıra nəzəri fənlərin tədrisi distant (məsafədən) formada təşkil olunur.

**2.5. Tədrisin distant (məsafədən) formada təşkili**

2.5.1. 2020/2021-ci tədris ilinin payız semestrində tədrisin distant (məsafədən) təşkili zamanı əsasən nəzəri fənlərin tədrisinə üstünlük verilməlidir. Bu məqsədlə uyğunlaşdırılmış tədris planları (payız semestrində tədrisi nəzərdə tutulan və praktiki bacarıqların formalaşdırılmasını təmin edən fənləri yaz semestrində keçilməsi nəzərdə tutulan nəzəri fənlərlə əvəz etməklə) tətbiq olunur;

2.5.2. tələbə qəbul olunduğu əyani və ya qiyabi təhsilalma forması üçün tərtib olunmuş tədris planı əsasında təhsil alır;

2.5.3. tədris distant (məsafədən) formada təşkil olunan zaman akademik saatın müddəti 30 dəqiqədir. Bütün növ dərslər üçün 2 akademik saat müəyyənləşdirilir. Akademik saatlararası 5 dəqiqədən az olmamaqla fasilə nəzərdə tutula bilər;

2.5.4. ali və orta ixtisas təhsili müəssisələrində tədris işinin aşağıdakı növləri müəyyənləşdirilir:

2.5.4.1. mühazirələr;

2.5.4.2. seminarlar;

2.5.4.3. məsləhətlər;

2.5.4.4. tələbənin sərbəst işi;

2.5.4.5. tələbənin müəllimin rəhbərliyi altında sərbəst işi;

2.5.4.6. referatların yazılması;

2.5.4.7. kurs layihəsi (işi);

2.5.4.8. qrup layihəsi;

2.5.5. ayrı-ayrı ixtisaslar üzrə təhsil proqramlarının təhsilalanlar tərəfindən mənimsənilmə səviyyəsi və keyfiyyəti cari, aralıq və dövlət attestasiyası zamanı müəyyənləşdirilir. Fənn üzrə tələbənin toplaya biləcəyi balların maksimum həddi 100-ə bərabərdir. Cari və aralıq qiymətləndirmənin aparılması qaydası, eləcə də imtahan sessiyasının təşkili və dövlət attestasiyasının keçirilməsi qaydaları Təhsil Nazirliyi ilə razılaşdırılmaqla təhsil müəssisəsinin ali idarəetmə orqanı tərəfindən müəyyən edilir;

2.5.6. semestr ərzində tələbənin tədris prosesindəki fəaliyyəti üzrə qeydiyyat formaları, qiymətləndirmə üsulları (yazılı, şifahi, test, baxış, dinləmə, performans və s.) və qiymətləndirmə meyarları təhsil müəssisəsinin ali idarəetmə orqanı tərəfindən müəyyən edilir və təhsil müəssisəsinin informasiya resurslarında yerləşdirilir;

2.5.7. təhsil alanlar fənn üzrə ayrılmış saatların 50 faizindən çoxunda iştirak etmədikdə həmin fəndən imtahana buraxılmır. Bu hədd təhsil müəssisəsinin ali idarəetmə orqanı tərəfindən dəyişdirilə bilər;

2.5.8. fənnə ayrılmış saatın miqdarı dəyişmədən onun tədrisinə ayrılan həftələrin sayı minimum 7 həftəyədək azaldıla bilər. Tələbənin qiymətləndirilməsi həmin fənn üzrə nəzəri təlim müddəti başa çatdıqdan sonra imtahan sessiyasına ayrılan həftələrin hesabına aparılır;

2.5.9. tədris distant (məsafədən) formada təşkil olunan zaman, ali və orta ixtisas təhsil müəssisələrində istifadə olunan proqram təminatı aşağıdakı imkanlara malik olmalıdır:

2.5.9.1. təhsilalanlar və təhsilverənlərin verifikasiyası mümkün olmalıdır;

2.5.9.2. proqram təminatının video bağlantı imkanı olmalıdır;

2.5.9.3. proqram təminatının tapşırıq və onları yoxlama modulları olmalıdır;

2.5.9.4. proqram təminatının tədris prosesinin iştirakçıları arasında canlı və yazışma bağlantısının yaradılması üçün imkanı olmalıdır;

2.5.9.5. proqram təminatı tədris materiallarını (sillabus, mühazirə mətnləri və s.) saxlama imkanlarına malik olmalıdır. Dərs zamanı keçirilən dərsin video yazısının təhsilalanlar üçün hər zaman və hər yerdə çıxış imkanı (asinxron təhsil imkanları) təmin olunmalıdır;

2.5.9.6. proqram təminatı təhsil müəssisəsinin Təhsil Nazirliyi və müəssisənin rəhbəri üçün təhsilalanların davamiyyəti, dərslərdə iştirakı, tapşırıqların yerinə yetirilməsi və tədris prosesinin digər komponentlərini təhlil edə bilməsi üçün mərkəzləşdirilmiş analitik hesabatları istehsal etməlidir.

2.5.10. Tədrisin təşkili ilə bağlı digər məsələlər təhsil pilləsinə uyğun olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nın təsdiq edilməsi haqqında” 2013-cü il 24 dekabr tarixli 348 nömrəli və “Orta ixtisas təhsili müəssisələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nın təsdiq edilməsi haqqında” 2013-cü il 26 dekabr tarixli 354 nömrəli qərarları ilə tənzimlənir.